## 2. Birliyin fəaliyyət istiqamətləri

2.1. Birliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. gömrük fəaliyyətinin həyata keçirilməsinə yardım göstərir;

2.1.2. xarici ticarət iştirakçılarına müqavilə əsasında gömrük məsələləri üzrə xidmətlər, o cümlədən təmsilçilik xidmətləri göstərir;

2.1.3. verilmiş səlahiyyət əsasında xarici ticarət iştirakçılarına gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə xidmətlər göstərir;

2.1.4. məlumatlandırma və konsaltinq xidmətlərini göstərir;

2.1.5. logistika fəaliyyətini həyata keçirir;

2.1.6. dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyəti həyata keçirir;

2.1.7. gömrük ərazisində quraşdırılmış yoxlama tərəzilərində nəqliyyat vasitələrinin çəkilməsini təmin edir;

2.1.8. gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacaqlarında nəqliyyat vasitələrinin saxlanılmasını təşkil edir;

2.1.9. dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satışını təşkil edir və əldə olunmuş vəsaitlərin aidiyyəti üzrə köçürülməsini təmin edir.